# Gənclər siyasəti yeni mərhələyə qədəm qoyub

*2 fevral Azərbaycan gəncləri üçün xüsusi və qürurverici bir gündür. 1997-ci ildə ulu öndər Heydər Əliyevin imzaladığı Fərmanla bu tarix Azərbaycan Gəncləri Günü kimi təsis edilib. Bununla da Azərbaycan MDB məkanında və Şərqi Avropa ölkələri arasında bir ilkə imza ataraq gənclərə yüksək dəyər verdiyini bir daha sübut edib. Gənclər siyasətinə göstərilən bu diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən sonra, yalnız 1998-ci ildə gənclərlə bağlı beynəlxalq konfransda belə bir günün təsis edilməsi tövsiyə olunub. Nəticədə, BMT Baş Məclisi 1999-cu ilin dekabrında 12 avqustu Beynəlxalq Gənclər Günü elan edib. Bu gün Azərbaycanın gəncləri öz tarixlərinin ən şanlı səhifələrini yazan bir nəslin nümayəndələri kimi 2 fevralı qalib ölkənin vətəndaşları olaraq böyük qürur və sevinc hissi ilə qeyd edirlər. Onlar yaxşı bilirlər ki, bu əlamətdar gün ulu öndər Heydər Əliyevin gənclərə verdiyi dəyərin, onlara göstərdiyi etimadın ən gözəl təzahürlərindən biridir.*



Müstəqil Azərbaycanın gənclər siyasətinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Müstəqilliyimizin ilk illərindən etibarən aydın strategiya ilə gənclərin potensialı ölkənin inkişafına və milli maraqların qorunmasına yönəldilib. Gənc nəslin vətənpərvər ruhda yetişməsi, onların ölkənin gələcəyində mühüm rol oynaması üçün geniş imkanlar yaradılıb. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin Birinci Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi vəzifələri müəyyən edərək onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi üçün yeni istiqamətlər müəyyənləşdirdi. Bu mühüm qərarlar Azərbaycanın gənclər siyasətinin gələcək uğurlarına yol açdı və bugünkü güclü, vətənpərvər gənclik məhz həmin əsaslar üzərində formalaşdı. Ümummilli lider Heydər Əliyevin gənclərə olan böyük etimadı bu gün öz təsdiqini tapır. Ölkəmizdə gənclər siyasəti yeni və daha inkişaf etmiş bir mərhələyə qədəm qoyub. Prezident İlham Əliyev ulu öndərin bu sahədə müəyyənləşdirdiyi prinsiplərə sadiq qalaraq gənclərin inkişafı üçün mühüm qərarlar qəbul edir. Onların mənəvi və vətənpərvər ruhda tərbiyəsi, xaricdə təhsil imkanlarının genişləndirilməsi, sosial dəstəyə ehtiyacı olan gənclərin problemlərinin həlli, gənclər təşkilatlarının inkişafı üçün yaradılan şərait xüsusi qayğının bariz nümunəsidir.

2003-cü ildən sonra Prezident İlham Əliyev gənclər siyasətini mövcud ənənələr əsasında daha da təkmilləşdirərək yeni strategiyalar müəyyənləşdirdi. Bu dövrdə bir sıra mühüm addımlar atıldı: Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə isə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis edildi. Bundan əlavə, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi ki, bu da gənclərin potensialının düzgün istiqamətə yönəldilməsində mühüm rol oynadı.

Azərbaycan gənclərinin xaricdə təhsil imkanları dövlətin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində daha da genişlənib. Prezident İlham Əliyevin 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq olunan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və "2022-2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" bu istiqamətdə mühüm addım hesab olunur. Həyata keçirilən proqramlar minlərlə gəncin dünyanın aparıcı ali təhsil ocaqlarında oxumasına və biliklərini ölkəmizin inkişafına yönəltməsinə şərait yaradıb.

Son illərdə Azərbaycan diasporunun gücləndirilməsi və dünya azərbaycanlılarının bir araya gətirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Ötən il Qarabağın mədəniyyət paytaxtı Şuşada təşkil olunan Diaspor Gənclərinin III Yay Düşərgəsi, eləcə də Şuşa və Bakı Gənclər İncəsənət Düşərgələri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dünyanın müxtəlif ölkələrindən gənclərin bu tədbirlərdə iştirakı onların təşkilatlanmasına və diaspor fəaliyyətinin daha da güclənməsinə böyük töhfə verib. Şuşa ili çərçivəsində xaricdə yaşayan azərbaycanlı gənclərlə yanaşı, Azərbaycana dost münasibət bəsləyən ölkələrin nümayəndələrinin də bu qədim şəhərdə bir araya gəlməsi və respublikamızla yaxından tanış olması müsbət hadisə kimi qiymətləndirilir. Bu gün Azərbaycan gəncləri cəmiyyətin bütün sahələrində fəal iştirak edirlər. Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsinə xüsusi önəm verməsi gənclərin ölkənin inkişafında aparıcı qüvvəyə çevrilməsini təmin edib. 2019-cu il 26 iyul tarixində dövlət başçısının Sərəncamı ilə təsis edilən "Yüksəliş" müsabiqəsi məhz yüksək intellekt və idarəçilik bacarıqlarına malik gənc liderlərin müəyyənləşdirilməsi və onların dəstəklənməsinə xidmət edir. Bu müsabiqə, eyni zamanda ölkənin kadr potensialının gücləndirilməsi və gələcək idarəçilərin yetişdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Gənclərin hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlər sırasında 2019-cu il 1 oktyabr tarixində Prezident İlham Əliyevin imzaladığı sərəncam da mühüm rol oynayır. Bu sərəncam əsasında Azərbaycanın müxtəlif şəhər və rayonlarında Heydər Əliyev Mərkəzlərinin nəzdində Gənclərin İnkişaf və Karyera Mərkəzlərinin nümayəndəlikləri yaradılıb. Bu təşəbbüs bir tərəfdən gənclərin dövlət siyasətinə daha aktiv inteqrasiyasına, digər tərəfdən isə ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsini və azərbaycançılıq məfkurəsini gənc nəslə daha dərindən aşılamaq məqsədinə xidmət edir. Bütün bu tədbirlər bir daha sübut edir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl gənclər siyasəti Azərbaycanın gələcək inkişafını və ölkəmizin parlaq gələcəyini təmin edən güclü, vətənpərvər və savadlı gənclik formalaşdırır.

Azərbaycanda gənclərin inkişafına yönəlmiş mühüm təşəbbüslərdən biri də 2012-ci ildən həyata keçirilən "Gənclər Paytaxtı" layihəsidir. Bu layihə çərçivəsində hər il ölkənin bir şəhəri və ya rayonu elektron səsvermə yolu ilə Azərbaycanın Gənclər Paytaxtı elan olunur. Bu addım bölgələrdə gənclərlə işin daha da gücləndirilməsi və onların müxtəlif sahələrdə fəallığının artırılması məqsədi daşıyır. Gənclər paytaxtı seçilən şəhər və rayonlar il ərzində dinamik tədbirlərə ev sahibliyi edərək gənclərin ictimai-siyasi, sosial, iqtisadi və mədəni həyatda daha aktiv iştirakını təmin edir. Eyni zamanda onların intellektual və yaradıcılıq potensialının inkişafına təkan verilir, yeni ideya və layihələrinin reallaşdırılmasına dəstək göstərilir. 2023-cü ildə Mingəçevir, 2024-cü ildə isə Lənkəran Azərbaycanın Gənclər Paytaxtı adına layiq görülüb. Bu seçim bölgələrdə gənclər hərəkatının güclənməsinə və gənclərin daha geniş imkanlar əldə etməsinə mühüm töhfə verir. Qeyd edək ki, bu layihə çərçivəsində indiyədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı, Göygöl və Tovuz kimi şəhər və rayonlar Gənclər Paytaxtı statusunu daşıyıb. Bakı istisna olmaqla, hər il fərqli bir şəhərin bu ada layiq görülməsi Azərbaycanın bütün regionlarında gənclərin inkişafına xüsusi diqqət ayrıldığını göstərir.

Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində əsl qəhrəmanlıq nümayiş etdirərək ölkənin suverenliyi və ərazi bütövlüyü uğrunda misilsiz xidmət göstəriblər. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müharibədə iştirak edən gənclərimiz yüksək döyüş ruhu, fədakarlıq və vətənpərvərlik nümayiş etdirərək tarixi Zəfərin qazanılmasında həlledici rol oynayıblar. Bu müharibədə yeni nəsil özünü təkcə döyüş meydanında deyil, həm də informasiya savaşında, könüllü fəaliyyətlərdə, humanitar missiyalarda fəal şəkildə təsdiqləyib. Gənclərimiz düşmən təxribatlarına qarşı sosial media platformalarında informasiya cəbhəsində mübarizə apararaq Azərbaycanın haqq səsini dünyaya çatdırıblar. Eyni zamanda könüllü gənclər şəhid və qazilərin ailələrinə dəstək göstərib, yaralı hərbçilərin yanında olublar. Müharibədən sonra isə gənclərimiz azad olunmuş torpaqların bərpası və yenidən qurulması prosesində mühüm rol oynayırlar. Onlar Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə töhfə verərək işğaldan azad olunmuş bölgələrdə yenidənqurma və sosial layihələrdə fəal iştirak edirlər. Azərbaycan gəncləri Vətən müharibəsində göstərdikləri qəhrəmanlıq və fədakarlıqla sübut etdilər ki, dövlətimizin və xalqımızın gələcəyi etibarlı əllərdədir. Onların şücaəti, vətənpərvərlik ruhu və əzmi gələcək nəsillər üçün əsl nümunədir.

Yeri gəlmişkən, qeyd edək ki, dövlət başçısı İlham Əliyev cari il yanvarın 31-də elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən bir qrup gəncə 2025-ci il Gənclər üçün Prezident mükafatları verilməsi haqqında Sərəncam imzalayıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2025.- 2 fevral (№23).- S.2.